# “Çıxın otaqdan, dərsimə mane olursunuz”

Həyatda ilk tanıdığım müəllim atam olub. Kiçik qardaşım nadinc idi. Bir-iki dəfə qonşu qadınların onun qarasınca “Müəllim uşağı belə olandan sonra özümüzünkünə nə deyək?” gileyini eşitmişdim. Müəllimin kim olduğunu, özümün də müəllim övladı olduğumu dərk etdiyim gündən mənim üçün çox şey dəyişdi. “Fehruz müəllimin qızı” olmaq davranışlarımın, münasibətimin əsas meyarı oldu. Bu məsuliyyətin ağırlığı ilə böyüdüm, formalaşdım. Bunun yaxşı və ya pis olduğunu o vaxt düşünmürdüm. Qonşuların, məktəbdə müəllimlərimin mənə yanaşmasında bunu həmişə hiss etdim, amma bundan üstünlük kimi heç vaxt istifadə etmədim, o üstünlüyü, o fərqi özüm yaratmağa çalışdım.

N.Nərimanov rayonu 39 nömrəli məktəbin 5-ci sinfində oxuyurdum. Yeni dərs ilinin ilk günləri idi. Sinif yoldaşlarımla məktəbin həyətində oturmuşduq. Çox çətinliklə hərəkət edən gənc qadın dəmir darvazadan məktəbin həyətinə keçdi. Sağ ayağı hərəkət etmirdi, çox çətinliklə yeriyirdi. Birdən haradansa bir it peyda oldu, deyəsən, yarıaçıq darvazadan içəri keçmişdi. İt gənc qadına sarı cumub, aramsız hürməyə başladı. Qadın itdən qorxub geriyə çəkildi, bu zaman səndələsə də yıxılmadı. Yerimizdən qalxıb ona tərəf götürüldük. Biz çathaçatda əmək müəllimimiz Fəxrəddin müəllim həyətdəki yardımçı tikilidən çıxıb iti qovdu.

Növbəti gün Azərbaycan dili dərsi idi. Təzə müəllimimiz olacaqdı. Sinfə doluşub maraqla onu gözləyirdik. Zəngin içəri vurulması ilə qapının açılması bir oldu. Həmin qadın idi. Bu dəfə daha yaxından müşahidə etdim: qarabuğdayı idi, iri qara gözlərində mehriban ifadə, şirin təbəssüm var idi. Çox çətinliklə irəliləyib birinci sıranın başındakı müəllim masasına yaxınlaşdı. Çantasını masanın üzərinə qoydu. Sağ ayağı kimi sağ qolu da hərəkətsiz idi. Bizim müəllimimiz olacaqdı, anlaşsaq, bizi sonadək aparacaqdı. Natiqə müəllimin şərti bu idi. Anlaşdıq və sonadək bizimlə oldu. Bizi elə təmənnasız və o qədər sevirdi ki... Onunla tanışlıqdan sonra məlum oldu ki, uşaqlarımızdan hansınınsa yaxşı şeir, digərinin nağıl və hekayə yazmağı varmış. Sinfimizdə qiraətçilər yetişirdi. Divar qəzeti buraxmağa başladıq, aramızda rəssamlar da peyda oldu. Hələ dram dərnəyimiz... Məktəbin bütün siniflərindən, Natiqə müəllimin dərs demədiyi siniflərdən belə, uşaqlar onun dram dərnəyinə üzv yazıldılar. Məktəbdə keçirilən bütün tədbirlərdə, əlamətdar günlərdə dram dərnəyimiz klassiklərimizin əsərlərindən parçalar hazırlayırdı, qiraətçilərimiz çıxış edirdi. Yadımdadır, hətta iki dəfə ayrıca tamaşa da göstərdik. Hər ikisində də zalda oturmağa yer qalmadığından sıraların arasına stullar düzülmüşdü. Qiraətçilərimizin sorağı ümumrespublika müsabiqəsindən gəlirdi. Natiqə müəllim ilə ünsiyyəti, alınan hər işimizə görə bizə qoşulub uşaq kimi sevinməyini, alınmayan hər xırdalığa bizim qədər məyus olmağını, amma sonra da bizə təsəlli verməyini çox sevirdik. O bizdən biri idi. Onun sayəsində yeni hisslər, duyğular kəşf etdik, indiyədək dərk etmədiyimiz nəsnələrə sevinməyi, kədərlənməyi, anlamağı, qayğı çəkməyi, dəyər verməyi öyrəndik. Beləcə, insanlaşdıq.

Natiqə müəllimin təmənnasız sevgisi məni Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin tələbəsi etdi. Burada isə Şahməddin müəllim var idi. Tanışlığımızın ilk günündən bizdə maraq oyatdı. Yaşı 50-ni keçmiş kişi iti addımlarla auditoriyaya girdi. Səliqəli və təzə geyinmişdi. Saçı seyrək idi. Çatılmış qaşları ilk baxışdan onu zəhmli göstərirdi. Qoltuğuna vurub gətirdiyi kitabları masanın üstünə qoydu. Onun sürətli hərəkətlərini izləyən biz tələbələrə səmimiyyətlə gülümsəyib özünü təqdim etdi: “Şahməddin Xəlilov, BDU-nun türkologiya kafedrasının müəllimi”. Bunu deyib təbaşiri götürdü və lövhədə yazmağa başladı. Arxası bizə olan müəllimə, daha doğrusu, onun pencəyinə işarə edib uşaqlarla baxışdıq. İndicə tanış olduğumuz Şahməddin müəllimin pencəyinin hər iki qolu arxa tərəfdən tikiş yerindən partlamışdı.

O, mühazirə demirdi, o, mühazirəni yaşayırdı. Səsi gah qalxır, gah enir, mimikası tez-tez dəyişir, hər cümlənin tələffüzü xüsusi olurdu. Qolları sağa-sola açılır, yuxarı-aşağı hərəkət edirdi. Onun lövhənin qarşısında əlində təbaşirlə etdiyi hərəkət mürəkkəb rəqsi xatırladırdı. Şahməddin müəllim əsl monotamaşa göstərirdi. Onun təzə pencəyinin qollarının tikiş yerindən partlamasının səbəbi göz qabağında idi. Bu, yəqin ki, hər gün baş verirdi. Bir müəllimin bütün varlığı və qüvvəsi ilə öyrətmək istəyi, öyrətmək həvəsi onu yaşından asılı olmayaraq, necə güclü, necə çevik edərmiş... Hər dəfə mühazirədən sonra “Uşaqlar, görün sizin üçün nə tapmışam?” deyib yeni kitabları bizə göstərirdi.

İnternetin olmadığı vaxtlarda Şahməddin müəllim bizim üçün “Google” idi. O, öyrətməyi sevən və ən əsası bunu bacaran İNSAN idi. O, MÜƏLLİM idi.

Artıq Bakı Slavyan Universitetinin Jurnalistika fakültəsinin müəllimi idim. Selcanın 5 yaşı var idi. Bir dəfə onu özümlə universitetə aparmalı olmuşdum. Biz auditoriyaya girəndə ayağa qalxan tələbələrin gözü mənə yox, 5 yaşlı uşağın boyu bərabərinə dikildi. Qızım tapşırdığım kimi, kəpənək yüngüllüyü ilə yerə toxunaraq arxa partaya keçib göstərdiyim boş yerdə əyləşdi. Tələbələrin aradabir ona baxıb gülümsəməsinə rəğmən, onun diqqəti məhz məndə idi. Hiss etdim ki, bir xeyli gözünü məndən çəkmədi. Bir azdan başını partaya qoyub yuxuya getdi.

- Ana, sən anasan, yoxsa müəllim? - Universitetdən çıxanda soruşdu.

- Həm anayam, həm də müəllim. Sənin anan, onların müəllimiyəm.

- Axı onlara da “qızım”, “oğlum” deyirdin. Hansımız birinci gəlirik? Onlar, yoxsa mən?

Uşaq sadəlövhlüyü ilə verilən bu sualların cavabını mən 12 ildən sonra tapacaqdım...

2008-2015-ci illərdə işlədiyim Bakı Slavyan Universitetinin Jurnalistika fakültəsində dərs dediyim tələbələrimə, eləcə də, hazırda artıq üç ildir işlədiyim Bakı Dövlət Universitetinin eyni fakültəsindəki gənc həmkarlarıma həmişə o qədər sözüm olub ki... Bəzən nəyisə öz anlayışlarına buraxdığım situasiyalar da olub. Amma bu sözləri mütləq demişəm: səni dünyanın bir nömrəsi edəcək, səhər yuxudan duranda məşhurlaşdıracaq xəbər bunun əvəzində səndən insanlığını qurban istəyəcəksə, sən nəfsini boğub, məşhur olmaqdan imtina edib İNSANlığını qoruyub saxlayacaqsan. Natiqə müəllimin, Şahməddin müəllimin mənə öyrətdiyi təmənnasız sevmək bacarığını sən də öyrənib özündən sonra gələnlərə öyrədəcəksən. Sən bütün hallarda İNSAN olmağı seçəcəksən.

Zaman-zaman müəllim kimliyimi jurnalist kimliyimdən, bu ikisini isə ana və insan kimliyimdən ayırmağa, fərqləndirməyə çalışmışam. Lakin ayırmağa çalışdıqca, əksinə, bu kimliklərin bir-birindən necə ayrılmaz olduğunu görmüşəm.

Bu gün Bakı Dövlət Universitetinin Jurnalistka fakültəsində pedaqoji fəaliyyət göstərməklə yanaşı, həm də televiziyada işləyirəm. Buradakı həmkarlarım mənə “xanım” deyil, “müəllim” deyə müraciət edirlər. Ona görə yox ki, müəllim olduğumu buradakıların hamısı bilir. Ona görə ki, komandamızdakı 4 həmkarım vaxtilə ayrı-ayrı illərdə auditoriyada dərs dediyim tələbələrimdir. “Uşaqlar, biz auditoriyada deyilik, burada həmkarıq” deməyimə baxmayaraq, onlar hələ də “müəllim” xitabına sadiq qalıblar. Məhz bu 4 nəfərin “müəllim” müraciət formasına sevgisinin nəticəsi olaraq, bu gün işlədiyim televiziyada hər kəs mənə “müəllim” deyə müraciət edir. Bir müəllim üçün tələbələri ilə eyni komandada işləməyin və onların sayəsində məhz müəllim kimi tanınmağın məmnunluğu hisslərin ən gözəli deyilmi?

Təqaüd yaşı ilə əlaqədar olaraq, atam ömrünün 45 ilini həsr etdiyi təhsil ocağından, müəllim yoldaşlarından ayrılmalı oldu. Boşluğa düşdüyü hər halından bəlli idi, həyatının dadı-duzu, mənası itmişdi sanki. Heç bir il tamam olmadı, səhhətində ciddi problem yarandı. Yatmağı belə zaman itkisi hesab edən atam yataq xəstəsi oldu. Xəstəlik onun tək hərəkətini deyil, yaddaşını da əlindən aldı. Tədricən hamını, hər kəsi unutdu. Valideyn olduğunu, övladlarının varlığını belə xatırlaya bilmədi. Hamını və hər kəsi, hətta öz kimliyini belə unudan atam son nəfəsinədək yalnız bircə həqiqəti - MÜƏLLİM olduğunu unutmadı. Atamın müəllim kimliyi ata kimliyini üstələmişdi. Ömrünün son dəqiqələrində isə “Çıxın otaqdan, dərsimə mane olursunuz” dedi. Bu, 12 il əvvəl 5 yaşlı qızımın “Ana, sən anasan, yoxsa müəllim?” sualının o vaxt heç cür tapa bilmədiyim cavabı idi. Bu suala bir müəllim bu dünyadakı sonuncu kəlmələri ilə cavab vermişdi...

Nəhayət, sonda... Həyatıma toxunan hər üç müəllim bizim indi olduğumuz dünyada yoxdur. Əvəzində onların xatirələri, bizə öyrətdikləri dəyərlər yaşayır. Əminəm ki, insan və insanlığın ömrü heç bir halda fiziki mahiyyət daşımır. Onların bu dünyadakı ömrü onları xatırlayan sonuncu şəxsin ömrü ilə ölçülür. Bu yazı ilə onların ömrünü bir qədər də uzatmağa çalışdım.

**Nüşabə HÜSEYNOVA,**
*Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Yeni media və kommunikasiya texnologiyaları kafedrasının müəllimi*

Azərbaycan müəllimi.- 2025.- 18 yanvar, №2.- S.7.